# *Sumqayıt Kimya Sənaye Parkı:* sənayeləşmə siyasətinin bəhrəsi





**Prezident İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərindən biri də iqtisadiyyatın şaxələndirilməsidir. Son bir neçə ildə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının neftdən asılılığı xeyli azalmış, qeyri-neft sektorunun inkişafı sahəsində ciddi irəliləyişlərə nail olunmuşdur.**

Aparılan islahatların nəticəsi olaraq ümumi daxili məhsulda (ÜDM) qeyri-neft sektorunun payı 70 faizə çatmışdır. Burada digər sahələrlə yanaşı, sənaye sektorunun da özünəməxsus yeri vardır. Bu baxımdan təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəri hesab edilən Sumqayıtda yaradılan yeni zavod və müəssisələrin də ölkəmizin sənaye sektorunda yeri xüsusi vurğulanmalıdır.

Sumqayıtda yaradılan Sumqayıt Texnologiya Parkı və Sumqayıt Kimya Sənaye Parkı Azərbaycanda gedən sənayeləşmə siyasətinin ən gözəl təzahürüdür. Burada istehsal edilən müasir standartlara cavab verən məhsullar artıq dünya bazarında özünə layiqli yer turub.

Fevralın 18-də sözügedən sənaye müəssisələrinin sırasına daha bir yenisi də əlavə olundu. Prezident İlham Əliyevin iştirakı ilə "SOCAR Polymer" yüksək sıxlıqlı polietilen zavodunun açılış mərasimi keçirilib. Açılışda verilən məlumatlardan bəlli olur ki, yeni zavod ölkəmzin sənaye sektorunda xüsusi çəkiyə malik olan müəssisələrdən biri olacaqdır. Belə ki, yalnız bu zavodun istifadəyə verilməsi ilə Azərbaycanın qeyri-neft ixracının 15 faiz artacağı proqnozlaşdırılır. Yalnız bu faktın özü kimya sənayesi sahəsində aparılan işlərin miqyasını qiymətləndirməyə kifayətdir. Qeyd edək ki, ölkəmizdə aparılan sənayeləşmə siyasətinin əsas məqsədlərindən biri qeyri-neft ixracını artırmaq, iqtisadiyyatı şaxələndirmək, bunlarla yanaşı, yeni iş yerlərinin açılması və müasir texnologiyalara malik müəssisələrin yaradılmasına nail olmaqdır. Prezident İlham Əliyevin vurğuladığı kimi, yeni istehsal sahələrinin yaradılması imkan verir ki, Azərbaycan təkcə neftdən və qazdan yox, eyni zamanda, hazır məhsullardan da valyuta qazansın.

Digər tərəfdən, yeni yaradılan müəssisələr bir sıra sosail layihələrin də reallaşmasına imkan yaradır. İlk növbədə bu zaman yeni iş yerləri açılır və yeni istiqamətlər həm də yeni ixtisaslı kadrların hazırlanmasına zəmin yaradır. Bu baxımdan böyük, texnoloji cəhətdən müasir zavodların fəaliyyəti ölkəmizin gənclərinin mütəxəssis kimi hazırlanmasına da təkan verir. Məhz bu amilləri nəzərə alaraq dövlətimizin başçısı zavodun açılışında da burada çalışan gənclərə xitabən deyib: "Bizim əsas məqsədimiz qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirmək, yeni iş yerləri açmaq və Azərbaycanda müasir texnologiyalı müəssisələrin yaradılmasına nail olmaqdır. Bununla paralel olaraq, belə böyük, texnoloji cəhətdən müasir zavodların fəaliyyəti gənclərin hazırlanmasına da xidmət göstərir. Siz gənclər təlim keçmisiniz, orta əməkhaqqı çox yüksəkdir. Siz buna layiqsiniz. Siz müasir sənaye müəssisəsində çalışacaqsınız və bu müəssisənin fəaliyyəti ölkəmizi gücləndirəcək".

Xatırladaq ki, "SOCAR Polymer" şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci ilin oktyabrında Prezident İlham Əliyevin iştirakı ilə müasir texnologiyalara əsaslanan "SOCAR Polymer" zavodlarının təməli qoyulub. Artıq yüksəksıxlıqlı polietilen zavodu da istismara tam hazırdır. İlkin mərhələdə "SOCAR Polymer" zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. SOCAR-ın yeni sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcək.

Bütün bunlar Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin real nəticələridir. Bu baxımdan müasir və yüksək texnologiyalara əsaslanan sənayenin tərəqqisinə təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parklarının və məhəllələrinin qurulması xüsusi əhəmiyyət kəsb edir.

✍ **Taleh Turqut,**
***"İki sahil"***

## *Rauf Əliyev:* Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır

"Xalqımızın sosial-rifah halının durmadan yaxşılaşdırılması Azərbaycan Prezidentinin həyata keçirtdiyi siyasi kursun ana xəttidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən uğurlu siyasət nəticəsində son illərdə Azərbaycan sürətlə inkişaf edərək böyük iqtisadi uğurlar əldə etmişdir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,3 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır. Azərbaycanın valyuta ehtiyatı 1,8 milyard dollardan 46 milyard dollara çatmışdır". Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev deyib.

R.Əliyev bildirib ki, əldə olunan iqtisadi uğurlar ölkədə geniş sosial islahatlar artırılmasına, əhalinin sosial rifah halının yaxşılaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Ölkədə 2 milyon yeni iş yeri açılmış, əmək haqqı 7 dəfə, pensiyalar 9 dəfə artmışdır. İşsizlik səviyyəsi 5 faizə, yoxsulluq səviyyəsi 49%-dən 5,4%-ə endirilmişdir. Son 15 ildə 3 min 200 dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 olimpiya mərkəzi yaradılmışdır.

"Cənab Prezident İlham Əliyev tərəfindən şəhid ailələrinə və Qarabağ müharibəsinin əlillərinə xüsusi diqqət və qayğı göstərilir. 2018-ci ildə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra cənab Prezident tərəfindən imzalanan ilk Fərman da buna bariz nümunədir. Şəhid hərbi qulluqçuların ailələrinə 11000 manat birdəfəlik ödəmənin verilməsini nəzərdə tutan bu Fərman bu ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində atılan ən mühüm addımlardan biridir"-deyən millət vəkili qeyd edib ki, 2019-cu il yanvarın 1-i tarixinə 12779 şəhid ailəsi, 119 nəfər 20 Yanvar şəhid ailəsi, 11994 nəfər Qarabağ əlili, 327 nəfər 20 Yanvar hadisələri zamanı əlil olanlar Prezident təqaüdü, 49692 nəfər Qarabağ müharibəsi veteranı müavinəti ilə təmin olunur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə göstərdiyi xüsusi qayğı nəticəsində 2018-ci ildə əvvəlki ilə nisbətən bu kateqoriyadan olan ailələrə 3 dəfə çox - 626 mənzil təqdim olunub. İndiyədək bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil verilib. Şəhid ailələrinə, müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdlərinin də məbləği ötən dövürdə mütəmadi olaraq artırılıb. Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2019-cu il tarixli Fərmanı ilə 01.02.2019-cu il tarixdən şəhid ailələri üçün Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün məbləği 242 manatdan artırılaraq 300 manat müəyyən edilmişdir.

"Dövlət başçısının 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə bu ilin mart ayının 1-dən minimum əmək haqqının 38,5% (50 manat) artırılaraq 180 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən müəssisə və təşkilatlarda, eləcə də özəl sektorda çalışan azı 600 min işçinin əmək haqqının artırılmasına imkan verəcək. Minimum əmək haqqının artırılması üçün dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu ilin 10 ayı üçün (mart-dekabr) 335 milyon manatadək əlavə vəsait ayrılacaq. Azərbaycan Respublikası Prezidentinin "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Milli Elimlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" 14 fevral 2019-cu il tarixli sərəncamı, "Azərbaycan Respublikasının ali məktəbləri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli Fərmanında dəyişiklik edilməsi ilə bağlı 14 fevral 2019-cu il tarixli Fərmanı ilə dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elimlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri orta hesabla 20 % artırılır. Bu da 600-ə yaxın doktorantı və 110 mindən artıq tələbəni əhatə edir. Bu yaxınlarda əmək pensiyalarının minimum məbləğinin 116 manatdan 160 manatadək artırılması da nəzərdə tutulur. Bu da təxminən 38 % artım deməkdir. Bu artımdan 233 min əmək pensiyaçısı yararlanacaqdır. Bu artımın maliyyələşməsi üçün ildə dövlət büdcəsindən 49 milyon manat vəsaitin ayrılacaqdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin sosial-rifah halının daha da yaxşılaşdırılmasını təmin edən son fərman və sərəncamları bir daha göstərir ki, cənab Prezidentin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən siyasi kursun mərkəzində Azərbaycan vətəndaşı, onun sosial-rifah halının davamlı olaraq yüksəldilməsi dayanır və bu siyasət bundan sonra da uğurla davam etdiriləcək"-deyə, komitə sədrinin müavini vurğulayıb.